# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN
# İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

AZ 1122 Bakı şəhəri,
H. Zərdabi küç. 96

Tel.: (+99412) 431-60-88, Faks: (+99412) 430-52-85
Elektron poçtu: office@isim.az http://www.isim.az

"____" ______________2014-cü il №__________

**ƏMR № 387**

**Bakı şəhəri** **03 noyabr 2014-cü il**

**"25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü" ilə əlaqədar konfrans və dəyirmi masanın keçirilməsi barədə"**

Səhiyyə Nazirliyinin 15.02.2012-cü il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş "Məişət zorakılığının qarşısının alınması üzrə Səhiyyə Nazirliyinin Tədbirlər Planı"nın 1.3.3-cü bəndinin 2-ci hissəsinə əsasən məişət zorakılığının qarşısının alınması sahəsində maarifləndirmə və təbliğat işinin təkmilləşdirilməsi məqsədi ilə

**ƏMR EDİRƏM**

1. "25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü" ilə əlaqədar 2014-cü ilin sonunadək Nəsimi Rayon İcra Hakimiyyəti ilə əməkdaşlıq çərçivəsində aidiyyəti qurumların nümayəndələri və gənclərin iştirakı ilə konfrans və Bakı Şəhəri İdman və Gənclər İdarəsi ilə birgə ali məktəb tələbələri üçün dəyirmi masa keçirilsin.
2. Əmrin 1-ci bəndində qeyd olunan konfrans və dəyirmi masada istifadə və iştirakçılar arasında paylanılmaq üçün maarifləndirici materiallar hazırlansın.
3. Qeyd olunan tədbirlərin müvafiq qaydada təşkili və həyata keçirilməsinə nəzarət Layihələrin əlaqələndirilməsi şöbəsinin müdiri Səbinə Babazadəyə tapşırılsın.
4. Baş mühasib Abuzər Məmmədova tapşırılsın ki, qeyd olunan tədbirlərin 2014-cü ilin sonunadək keçirilməsi üçün xərclərin smetası tərtib edilsin və vəsaitin smetaya uyğun olaraq İSİM-in bu məqsəd üçün nəzərdə tutulmuş büdcəsi hesabına ödənilməsi təmin edilsin.
5. Əmrin icrasına nəzarət direktorun birinci müavini Rauf Məmmədova həvalə edilsin.

**Direktor** **Ceyhun Məmmədov**

Rauf Məmmədov
nəzarətə
29.10.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**Ceyhun Məmmədova**

MƏLUMAT

"Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2011-ci il taPrixli 537 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 15.02.2012-ci il tarixli 13 nömrəli əmri ilə təsdiq edilmiş Tədbirlər Planın **1.3.3.2.** "Hər il 2 oktyabr Beynəlxalq qeyri-zorakılıq günü, 25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü və s. analoji günlərində müvafiq kütləvi aksiya və təşviqat kampaniyaları keçirmək" bəndin icrasını təmin etmək məqsədi ilə Nəsimi rayon İcra Hakimiyyəti ilə birgə əməkdaşlıq cərçivəsində rəsmilərin və gənclərin iştirakı ilə konfrans və Bakı şəhəri Gənclər və İdman İdarəsi ilə birgə ali məktəblərin tələbələrinin iştirakı ilə dəyirmi masanın kecirilməsi nəzərdə tutulur. Tədbirlərlə bağlı iştirakçılar və xidmətlər barədə cədvəl əlavə edilir.

Layihələrin əlaqələndirilməsi
şöbəsinin müdiri

Səbinə Babazadə

29.10.2014

“25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günü”ndə

| № | Tədbirin keçiriləcəyi yer və tədbir növü | Təşkilatçılar | İştirakçılar | Tədbirin təsviri |
|---|---|---|---|---|
| 1. | Nəsimi r-n İcra hakimiyyətinin akt zalında<br><br>konfrans | İSİM və Nəsimi r-n İcra hakimiyyəti | 250 nəfər:<br>• Qonaqlar – milli məclisin deputatları, AR Təhsil Nazirliyinin, AR Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Ombudsman, MVD, UNFPA, “Təmiz Dünya” GHT, “ADDİM” GHT, “XXI Əsrin Qadınları” GHT əməkdaşları<br>Nəsimi raronunda yerləşən<br>• 27 məktəbdən- direktor müavini, psixoloq və şagird özünüidarəetmə orqanın rəhbəri,<br>• 8 ali məktəbin tələbə - gənclər təşkilatlarının nümayəndələri, hər bir ali məktəbdən 20 tələbənin iştirakı ilə | • Akt zalında bannerlər qadın zorakılığına məruz qalmış və lider qadınların simalarə ilə<br>• Açılış -zorakılığın bir necə növlərini əks etdirən teatralizə olunmuş tamaşa<br>• Açılış Nəsimi r-n İcra hakiminin müavini – G.Verdiyeva<br>Cıxışlar:<br>• İSİM-in nümayyəndəsi<br>• Milli məclisin deputatları<br>• AR Təhsil Nazirliyi<br>• AR Gənclər və İdman Nazirliyi<br>• Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitə<br>• Ombudsman<br>• MVD<br>• UNFPA<br>• “Təmiz Dünya” GHT<br>• “ADDİM” GHT |
| 2. | Gəncliyə Yardım Fondu<br><br>Dəyirmi masa | Bakı şəhəri Gənclər və İdman İdarəsi | ali məktəblərin tələbələrinin iştirakı ilə | Cıxışlar:<br>• Bakı şəhəri Gənclər və İdman İdarəsi<br>• İSİM-in nümayyəndəsi<br>• “İnsan Hüquqları Üzrə Maarifləndirmə” İB<br>• “Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım”İB<br>• tələbə - gənclər təşkilatının nümayəndəsi |

| Cədvəl | |
|---|---|
| təşkilatçı | Səbinə Babazadə<br>Aysel Haciyeva |
| Cıxış edənlər: | Səbuhi Abdullayev<br>Nabil Seyidov |
| Cap materialları: | |
| Stol üstü kalendar | 3000 ədəd |
| Buklet A 4 “Qadını vurma, vurul” | 3000 ədəd |

| | |
|---|---|
| “25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günüdür” şüarı ilə kağız çanta | 3000 ədəd |
| Plakat A3 | 1000ədəd |
| Bloknot “25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günüdür” şüarı ilə | 3000 ədəd |
| Qələm “25 noyabr Qadın zorakılığına qarşı beynəlxalq mübarizə günüdür” şüarı ilə | 3000 ədəd |
| Banner: zorakılığa məruz qalmış və lider qadınların siması ilə | 2 ədəd |
| nəqliyyət xərcləri | |
| fotoxidmət və video çəkiliş | 1 nəfər |